# XİDMƏT GÖSTƏRMƏ QAYDALARI
## Rəsmi təyinat

**Bank** – hüquqi şəxs – Azərbaycan Respublikasının ərazisində müstəsna bank xidmətləri göstərmək hüququna malik olan Azərbaycan Respublikasının rezidenti.

**Kart sahibləri** – fiziki şəxslər, Visa Platinum, Visa Signature və ya Visa İnfinite kartlarının sahibi, Çat-botda qeydiyyata alınmış və Təşkilatçının konsyerj (qapıçı)-xidmətinə qoşulmuş, hansı ki bu Qaydaların müddəalarına uyğun olaraq Xidmət almaq hüquqna malikdir.

**Sifarişçi** – "Viza İnterneşnl Servis Assosieyşn", ünvanı: ABŞ, CA 94404-2775, Foster-Siti, Metro Senter bulvarı, 900.

**İcraçı** – "Sağlam Ailə" MMC, hüquqi şəxsin identifikasiya nömrəsi: 1300235691,
yerləşdiyi ünvan: Azərbaycan, Bakı şəhəri, Əhməd Rəcəbli 3/10.

**Messencer** – həmçinin Viber, Teleqram vasitəsilə dərhal məlumatlar, videolar mübadiləsi üçün mobil tətbiq.

**Texniki tərəfdaş** – "İNFOKUS" MMC, hüquqi şəxsin identifikasiya nömrəsi: 36563986,
yerləşdiyi ünvan: Ukrayna, 03150, Kiyev, Delovaya küçəsi, 2-B, otaq 188-A

**Qaydalar** – cari Xidmət göstərilməsi qaydaları

**Xidmət** – **Vitamin D (25-OH Vitamin D)** ilə əlaqəli tibbi və diaqnostik xidmətlər formasında Kart Sahiblərinə göstərilən xidmət, əsasən qanda laborator analizin aparılması. Bu xidmətlər Sifarişçinin xidmətlərini məşhurlaşdırmaq məqsədilə Sifarişçidən hədiyyə kimi Azərbaycanın ərazisi daxilində Kart sahiblərinə göstəriləcək.

**İstifadə müddəti** – 31 Mart 2023-ci ildən 31 Mart 2025-ci ilədək, əgər Sifarişçi başqa müddət göstərməsə.

**Çat-bot** – Messencerlərdə olan Visa Concierge çat-botu.

Bu Qaydalarda şərh edilməyən bütün digər terminlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə nəzərdə tutulmuş müddəalar ilə təyin edilir.

**1. Xidmətə başlama qaydası**

1.1. Xidmət almaq məqsədilə, Kart sahibi aşağıdakı hərəkətləri yerinə yetirməlidir:
1.1.1. Bank tərəfindən verilmiş Visa Platinum, Visa Signature və ya Visa İnfinite kartlarının həqiqi sahibi olmalıdır və Təşkilatçının konsyerj (qapıçı)-xidmətinə qoşulmalıdır;
1.1.2. Öz elektron poçt ünvanını göstərməlidir;
1.1.3. Qaydalar ilə tanış olmalıdır;
1.1.4. Azərbaycanda yaşadığı ünvan (Qaydalarda göstərildiyi kimi) və ya İcraçının yerləşdiyi yer üzrə Xidməti sifariş etməlidir.
1.2. Bu Qaydalar Kart sahibi və Təşkilatçı /Sifarişçi / İcraçı arasında rəsmi qarşılıqlı münasibətlərdə əsas sənəd hesab edilir. Bu Qaydaların müddəalarının Kart sahibi tərəfindən qəbulu bu Qaydaların 1.1.1-1.1.4 bəndlərində göstərilən hərəkətlərin onun tərəfindən ardıcıl icrası yolu ilə həyata keçirilir. İcraçının Xidmət göstərilməsi üçün özünün əlavə qaydaları /şərtləri ola bilər, hansı ki bu Qaydalardan fərqlənməməlidir. Kart sahibi belə qaydalar/şərtlər ilə, həmçinin bu razılığın nəticələri ilə razılaşmaq haqqında sərbəst qərar verir.
1.3. Kart sahibi tərəfindən qəbul könüllü şəkildə aparılır və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq bu Qaydaların şərtləri altında yazılı müqavilənin bağlanmasını özündə əks etdirir. Qaydaların qismən qəbul yolverilməzdir.

**2. Xidmət almaq qaydası**

2.1. Xidmət almaq məqsədilə, Kart sahibi Qaydaların 1.1.1-1.1.4 bəndlərində göstərilən hərəkətləri ardıcıl yerinə yetirdikdən sonra aşağıdakıları icra edir:
2.1.1. Daxili mexanikaya uyğun olaraq Çat-botda konsyerj-xidmətə Xidmət almaq istəyi haqqında, həmçinin adı, soyadı, telefon nömrəsi;
2.1.2. Azərbaycanda öz yaşadığı ünvanı göstərir;

2.1.3. Kart sahibinin yaşadığı ünvanda və ya İcraçının yerləşdiyi yer üzrə rabitə və xidmət göstərilməsi qaydasının seçimi ilə bağlı lazımi əlaqə məlumatlarını, həmçinin xidmətin vaxtı və tarixi haqqında məlumatı təqdim edir;
2.1.3-1. Sifariş zamanı xidmətin göstərilməsi tarixi müraciət tarixindən etibarən maksimum 30 (otuz) təqvim günü daxilində seçilə bilər.
2.1.4. Qaydaların 2.2.1 bəndində göstərilən hazırlıq işlərini yerinə yetirir.
2.2. Qaydaların 2.1.1-2.1.3 bəndlərində göstərilən hərəkətlərin icrasından sonra İcraçı Kart sahibi ilə razılaşdığı müddətdə Kart sahibinə Xidmət təqdim edir. Qaydaların 2.3 bəndində göstərildiyi kimi Xidmət Kart sahibinin yaşadığı ünvanda və ya İcraçının yerləşdiyi yer üzrə təqdim edilir. Xidmətin nəticəsi bioloji material götürüldüyü andan 24 (iyirmi dörd) saat ərzində Kart sahibinin elektron poçt ünvanına göndərilir.
2.2.1. Xidmət almaq üçün Kart sahibi aşağıdakı şərtlərə və tövsiyələrə əməl etməlidir: **a) Qida qəbulunun qanda Vitamin D səviyyəsinə təsir göstərdiyini nəzərə alaraq, analiz götürülməzdən əvvəl 8 (səkkiz) saatlıq aclıq tələb olunur. Həmçinin İcraçı tərəfindən əlavə şərtlər göstərilə bilər.**
2.3. Xidmət yalnız xidmət anında Bakı, Gəncə və Sumqayıt şəhərlərində yaşayan Kart sahiblərinə yalnız Bakı, Gəncə və Sumqayıt şəhərləri daxilində İcraçının iş saatlarında göstərilir və təmin edilir. Digər şəhərlərdə xidmət göstərilmir.
2.4. Qüvvədə olma müddəti ərzində Kart sahibi yalnız aşağıdakı hədlər çərçivəsində Xidmət ala bilər:
2.4.1. Visa Platinum kart sahibləri üçün – ildə 2 xidmət;
2.4.2. Visa Signature kart sahibləri üçün – ildə 4 xidmət;
2.4.3. Visa İnfinite kart sahibləri üçün – ildə 6 xidmət.
Bu səviyyədə kart sahibləri üçün Xidmət evdə - 2.3 bəndində qeyd edilən şəhərlərdə Kart sahibinin yaşadığı ünvanda göstərilə bilər.
*Kartı buraxan bankın mülahizəsinə əsasən limitlər artırıla bilər. Bu halda, limitlər haqqında məlumat Kartı buraxan Bankın saytında təqdim edilməlidir.

2.5. Əgər Kart sahibinin bir-neçə kartı olarsa, onda Xidmət mümkünlüyü toplanır.
2.6. Xidmət yalnız Kart sahibinə göstərilir, üçüncü şəxslərə deyil.
2.7. Alınmamış Xidmətə görə heç bir pul vəsaiti ödənilmir.

2.8. Əgər Kart sahibi Xidmət almaq üçün birbaşa İcraçıya müraciət edərsə - bu cür xidmət göstərilmir.

**3. Məsuliyyət**

3.1. Kart sahibi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təqdim edilmiş məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyır.
3.2. Xidmətlə bağlı bütün şikayətlər Kart sahibi tərəfindən birbaşa İcraçıya təqdim edilməlidir. Bu cür şikayətdə keyfiyyətsiz xidmət haqqında məlumat (dəqiq əsaslarla) və dəqiq sübutlar göstərilməlidir, əks halda şikayətə baxılmayacaq. Əgər Təşkilatçı başqa şərt qoymasa, şikayətə son baxış İcraçı tərəfindən həyata keçirilir.
3.3. Yuxarıda göstərilənlərə baxmayaraq, və qanunvericiliyin tələblərini yerinə yetirməmək məqsədi olmadan, Təşkilatçı və /və ya Sifarişçi hər hansı əmlaka və ya şəxsə dəyən zərərə görə, həmçinin Xidmətin və ya onun nəticələrinin Kart sahibinin və ya üçüncü şəxslərin gözləntilərinə uyğun olmadığına görə məsuliyyət daşımır.
3.4. Təşkilatçı və /və ya Sifarişçi Xidmət predmetinə, keyfiyyətinə, kəmiyyətinə və müddətinə, həmçinin onun nəticələrinə görə məsuliyyət daşımır.
3.5. Xidmətin istənilən elementləri, alındığı tarixə aktuallığı nəzərə alınmaqla, Kart sahibi tərəfindən "olduğu kimi" qəbul edilir.

**4. Digər müddəalar**

4.1. Təşkilatçı bu Qaydaların çərçivəsində öhdəlikləri yerinə yetirmək üçün üçüncü şəxsləri cəlb etmək hüququna malikdir.
4.2. Bu Qaydaların fərqli mənada şərh olunduğu hallar baş verərsə, bu Qaydalar ilə tənzimlənməyən mübahisəli məsələlər Təşkilatçı və /və ya Sifarişçi tərəfindən həll edilir. Təşkilatçı və /və ya Sifarişçinin bu cür qərarı həlledici hesab edilir və şikayət edilə bilməz.
4.3. Təşkilatçı və /və ya Sifarişçi Qaydaları dəyişdirmək hüququnu saxlayır. Bu zaman, dəyişiklik və əlavələr haqqında məlumat Çat-botda yerləşdirilir. Əgər bu Qaydalara edilən dəyişiklik və əlavələrlə əksi nəzərdə tutulmasa, bu cür dəyişiklik və əlavələr nəşr olunduğu andan hüquqi qüvvəyə minir.